XİDMƏT KATALOQU · 2026

# Qazanxana, Odluq və Sənaye Avadanlıqlarının **Peşəkar Təmiri**, Avtomatlaşdırılması və Modifikasiyası

Binalar, istehsalat müəssisələri, fabriklər, aqrokomplekslər və asfalt zavodları üçün istənilən gücdə qazanxanaların, sənaye odluqlarının (burner), $CO_2$ avtomatika sistemlərinin, nasosların, generatorların, vintli hava kompressorlarının və PLC/MCC idarəetmə panolarının texniki servisi, təmiri və retrofiti.

**15+**
ildən artıq təcrübə

**24/7**
qəza müdaxiləsi

**100%**
zəmanətli icra

**30%**
-dək yanacaq qənaəti









KATALOQUN QURULUŞU

# 2008-ci ildən Azərbaycanda sənaye istilik texnikası

Bir mühəndis komandası, yeddi istiqamət: diaqnostika, əsaslı təmir, modernizasiya (retrofit) və planlı texniki xidmət. Məqsədimiz — avadanlıqlarınızın fasiləsiz işi, maksimal enerji səmərəliliyi və tam təhlükəsizlik.


| | | |
|---|---|---|
| 03 | Rəqəmlərlə biz | təcrübə · zəmanət · qənaət |
| 04 | Xidmətlər 01–03 | qazanxana · odluq · $CO_2$ |
| 05 | Xidmətlər 04–07 | nasos · kompressor · generator · pano |
| 06 | Rəqəmsal baca qazı analizi | $O_2$ · CO · $CO_2$ · NOx |
| 07 | Xidmət modelləri və FAQ | birdəfəlik · müqaviləli |
| 08 | İxtisas sahələri | zavod · aqro · sənaye · bina |
| 09 | Sertifikatlar və brendlər | lisenziya · akkreditasiya |
| 10 | Müştərilər və iş kadrları | sahələrdən |
| 11 | Əlaqə və iş axını | çağırış · audit · icra |





Avadanlığın nominal iş rejimini bərpa etmək - bütün xidmətlərimizin təməl sütunudur. Odluğun kalibrlənməsi, panonun retrofiti və dövri baxış çox vaxt yeni avadanlıqdan qat-qat ucuz başa gəlir və eyni nəticəni verir.

RƏQƏMLƏRLƏ BİZ

# Təcrübə, zəmanət və ölçülə bilən qənaət

| 15+ | 100% | 24/7 | 30%-dək |
| --- | --- | --- | --- |
| **İldən Artıq Təcrübə** | **Zəmanətli İcra** | **Qəza Müdaxiləsi** | **Yanacaq Qənaəti** |
| 2008-ci ildən etibarən servis sektorunda uğurlu fəaliyyət, qazanxana və sənaye avadanlıqlarının təmirində zəngin mühəndislik təcrübəsi. | Bütün təmir, modifikasiya və ehtiyat hissəsi dəyişimi işlərinə zəmanət öhdəliyi. | İstehsalatın və ya müəssisənin dayanmaması üçün operativ mobil servis xidməti. | Odluqların dəqiq kalibrlənməsi və elektron modulyasiyaya keçirilməsi (retrofit) nəticəsində əldə olunan maksimum səmərəlilik. |

GÜC DİAPAZONU · ∞

Kiçik həcmli mərkəzi isitmə sistemlərindən tutmuş, nəhəng sənaye buxar qazanlarına, 20 MW-lıq qazanxanalara və asfalt plantı odluqlarına qədər tam texniki xidmət. Mexaniki hissə, yanma prosesi və avtomatika — üçü də bir komandada.








ƏSAS XİDMƏTLƏRİMİZ

# İstilik mənbəyi və yanma prosesi




### Qazanxana Sistemlərinin Kompleks Servisi, Təmiri və Mövsümi Hazırlığı

İstənilən gücdə və tipli (suqızdırıcı, buxar, qızğın yağ) qazanxanaların kompleks texniki xidməti, diaqnostikası və əsaslı təmiri.

Qazanların daxili və xarici səthlərinin ərp və çöküntülərdən kimyəvi/mexaniki təmizlənməsi, təhlükəsizlik klapanlarının və avtomatik idarəetmə lövhələrinin tənzimlənməsi, mövsümə tam hazır vəziyyətə gətirilməsi. Potensial qəzaları öncədən müəyyən edərək gözlənilməz istehsalat dayanmalarının qarşısını alırıq.




### Sənaye Odluqlarının (Burner) Təmiri, Modifikasiyası və Retrofiti

Qaz, dizel, mazut və kombinasiya olunmuş (çoxyanacaqlı) odluqların təmiri, sınağı və kalibrlənməsi peşəkar səviyyədə.

Köhnəlmiş, mexaniki idarəetməli odluqları modernizasiya edərək (retrofit), mikroprosessorlu elektron idarəetmə və servo-mühərrikli hava-yanacaq nisbəti sistemlərinə keçiririk. Yanma prosesini rəqəmsal qaz analizatorları ilə tənzimləyərək CO və $CO_2$ emissiyalarını minimuma endirir, 15–30% yanacaq qənaəti əldə edirik.




### Aqrokomplekslər üçün $CO_2$ Qurğularının Sensor və Avtomatika Yenilənməsi

İstixana və aqrokomplekslərdə $CO_2$ səviyyəsinin normadan artıq və ya əskik olması həm məhsula zərər verir, həm də heyət üçün təhlükə yaradır.

$CO_2$ generatorlarının və dozajlama xətlərinin avtomatika sistemlərini sıfırdan qurur və ya mövcud sistemləri yeniləyirik: həssas $CO_2$ sensorlarının kalibrlənməsi, avtomatik qaz sızma təhlükəsizlik klapanlarının inteqrasiyası və mərkəzi idarəetmə pultuna (PLC) qoşulması.

ƏSAS XİDMƏTLƏRİMİZ

# Mexanika, enerji və avtomatika




### Dövriyyə və Təzyiq Nasoslarının Texniki Servisi

Dövriyyə, təzyiq artırma (booster), yanğın və drenaj nasoslarının təmiri və profilaktikası.

Şaquli, üfüqi və mərkəzdənqaçma nasosların diaqnostikası, mexaniki salnik və yastıqların dəyişdirilməsi, rotorların dinamik balanslaşdırılması, mühərrik sarğılarının nəzarəti və tezlik çeviricilərinin (VFD) sazlanması. Kavitasiya riskini aradan qaldırır, elektrik sərfiyyatını azaldırıq.




### Vintli Hava Kompressorlarının Servisi və Əsaslı Təmiri

Pnevmatik avadanlığı sıxılmış hava ilə təmin edən vintli kompressorun dayanması bütün xəttin dayanması deməkdir.

Planlı baxış (yağ, hava və separator filtrləri), vint blokunun (air-end) əsaslı təmiri, klapanların bərpası, soyutma radiatorlarının təmizlənməsi və təzyiq sensorlarının sazlanması. Həddindən artıq qızmanın və təzyiq düşmələrinin qarşısını alırıq.




### Sənaye Generatorlarının Servisi və İdarəetmə Panellərinin Təmiri

Şəbəkə kəsildikdə müəssisəni enerji ilə təmin edən dizel və qaz generatorlarının operativ işə düşməsi həyati əhəmiyyət daşıyır.

Mühərrik və alternatör diaqnostikası, Avtomatik Transfer Şalterlərinin (ATS) tənzimlənməsi, idarəetmə kartlarının proqramlaşdırılması, yük altında sınaqlar və dövri yağ/filtr dəyişimi.




### Sənaye Avtomatikası və PLC/MCC Panolarının Yığılması, Proqramlaşdırılması

Elektrik paylayıcı, avtomatika və PLC/SCADA idarəetmə panolarının sıfırdan yığılması, retrofiti və operativ təmiri — IEC/EN standartlarına uyğun.

PLC/HMI/SCADA lövhələri, güc və paylayıcı panolar (MCC/MDB), generator avtomatikası (ATS/AMF), tezlik çeviricilərinin (VFD) inteqrasiyası ilə 20–40% elektrik qənaəti, sensor və aktuatorların kalibrlənməsi.

ÖLÇMƏDƏN TƏNZİMLƏMƏ YOXDUR

# Rəqəmsal Baca Qazı Analizi ilə Maksimum Səmərəlilik və Minimum Emissiya

Yanacağın vizual yox, spektral cihazlarla təhlili. Kalibrlənmiş analizatorla CO, $CO_2$, NO, NOx və $O_2$ göstəricilərini ölçür, hava/yanacaq nisbətini idarəetmə lövhəsindən (servo-mühərriklərdən) dəqiq tənzimləyirik.

| $O_2$ | CO | $CO_2$ | NOx |
| --- | --- | --- | --- |
| 3–4% | ppm ↓ | Maks. ↑ | Low-NOx |
| Oksigen · hədəf aralıq | Dəm qazı · minimuma | Karbon dioksid · pik | Azot oksidləri · norma |

### Oksigen ($O_2$) — hava nisbətinin açarı

Azad oksigenin çox olması lazımsız havanın qızdırılıb bacadan atılması (enerji itkisi), az olması yanacağın tam yanmaması deməkdir. Hava damperini dəqiq tənzimləyərək $O_2$-ni ideal həddə (təbii qaz üçün 3–4%) gətiririk.

### Dəm qazı (CO) — gizli yanacaq itkisi

Yanacaq tam yanmadıqda karbon-monoksid əmələ gəlir — birbaşa havaya sovrulan yanmamış pul və zəhərlənmə riski. CO-nu ppm səviyyəsinə endirməklə yanacağın 100%-ə yaxın effektivliklə enerjiyə çevrilməsini təmin edirik.

### Karbon dioksid ($CO_2$) — yanma keyfiyyəti

Bacada $CO_2$-nin pik səviyyəyə çatması yanacağın ideal yandığını göstərir. Maksimum $CO_2$ verimi üçün hava və yanacaq girişini tam balansa gətiririk.

### Azot oksidləri (NO, NOx) — ekologiya

Yanma kamerasında temperatur həddindən artıq yüksək olduqda zərərli NOx qazları yaranır. Alovun formasını və temperaturunu tənzimləyərək Low-NOx standartlarını təmin edirik.

BİZNESƏ VƏ ƏTRAF MÜHİTƏ XEYRİ

**01** **Yanacaq sərfiyyatında böyük qənaət**

Düzgün tənzimlənməmiş sənaye odluqları il ərzində tonlarla artıq yanacaq və ya minlərlə kubmetr artıq təbii qaz yandırır. Analizatorla tənzimləmə bu itkini anında dayandırır.

**02** **Avadanlığın ömrünün uzanması**

Tam yanmayan yanacaq qazan borularında qurum yaradır. 1 mm-lik qurum təbəqəsi istilik ötürülməsini 10% zəiflədir. Analiz sayəsində borular təmiz qalır.

**03** **Ekoloji standartlar və cərimələrdən mühafizə**

CO və NOx qazlarının beynəlxalq ekoloji normalara uyğunlaşdırılması və Dövlət Ekologiya müfəttişliklərinə rəsmi Baca Analizi Hesabatının təqdim edilməsi.

XİDMƏT MODELLƏRİ

# Sizə Uyğun Xidmət Modelini Seçin

| MEYAR | Birdəfəlik Təmir və Servis | Dövri (Müqaviləli) Texniki Xidmət MAKSİMUM QƏNAƏT |
|---|---|---|
| XİDMƏT MƏQSƏDİ | Mövcud nasazlığı və qəzanı aradan qaldırmaq | Qəzaların baş verməsinin öncədən qarşısını almaq |
| REAKSİYA MÜDDƏTİ | Müraciət növbəsinə uyğun operativ müdaxilə | 24/7 prioritetli və anında reaksiya |
| MALİYYƏ PLANLAMASI | Qəza anında gözlənilməz xərclər | Öncədən bəlli, sabit illik/aylıq büdcə |
| AVADANLIĞIN ÖMRÜ | Qısamüddətli bərpa | Maksimum uzunömürlülük və yüksək effektivlik |
| YANACAQ QƏNAƏTİ | Yalnız təmir olunan detal çərçivəsində | Daimi kalibrləmə sayəsində maksimum qənaət |

TEZ-TEZ VERİLƏN SUALLAR

### Odluqların (burner) retrofit olunması nə üçün vacibdir?

Mexaniki idarə olunan köhnə odluqlarda hava və yanacaq nisbəti dəqiq tənzimlənmir. Retrofit zamanı rəqəmsal idarəetmə və servo-mühərriklər quraşdırılır. Bu, yanacağın tam yanmasını təmin edərək 15–30% qənaət verir.

### Baca qazı analizi nə qədər vaxtdan bir aparılmalıdır?

Sənaye müəssisələrində və böyük qazanxanalarda ildə ən azı 4 dəfə (mövsüm keçidlərində). Həmçinin yanacaq keyfiyyəti dəyişdikdə və ya təmir işindən sonra mütləqdir.

### Nə üçün təmir əvəzinə dövri xidmət müqaviləsi bağlamalıyam?

Dövri xidmət zamanı mühəndislərimiz kiçik nasazlıqları öncədən aşkar edir. Bu, istehsalatın anidən dayanmasının və sonradan yaranacaq çox daha bahalı təmir xərclərinin qarşısını alır.

İXTİSAS SAHƏLƏRİ

# Xidmət göstərdiyimiz müəssisə/sahə tipləri



### Asfalt Zavodları və İnert Material Təsərrüfatları

Yüksək güclü asfalt plantı odluqlarının (dizel, mazut, təbii qaz və ya kombinasiya olunmuş) təcili təmiri, yanma kamerasının kalibrlənməsi, alov sensorlarının təmizlənməsi və qaz/hava qarışığının optimal tənzimlənməsi.



### Aqrokomplekslər və İstixana Təsərrüfatları

İstixanaların $CO_2$ idarəetmə sistemləri, böyük həcmli isitmə qazanxanaları, suvarma və təzyiq nasos stansiyalarının fasiləsiz servisi.



### Fabriklər və Sənaye Müəssisələri

İstehsalat xətlərini təmin edən buxar və qızğın yağ qazanları, yüksək təzyiqli vintli hava kompressorları, sənaye odluqları və MCC panolarının təmiri, retrofiti.



### Yaşayış Binaları, Otellər və Biznes Mərkəzləri

Mərkəzi isitmə və isti su qazanxanaları, təzyiq artırma (booster) nasosları, dövriyyə sistemləri və qəza generatorlarının kompleks baxışı.

SERTİFİKATLAR VƏ LİSENZİYALAR

# Beynəlxalq Standartlar və Rəsmi Lisenziyalarımız

## İqtisadiyyat Nazirliyinin rəsmi lisenziyaları

Təhlükə potensiallı obyektlərdə (buxar və suqızdırıcı qazanlar, təzyiq altında işləyən qablar) montaj, sazlama və təmir işlərinin, həmçinin texniki qurğuların diaqnostikası və yoxlamalarının aparılması üçün rəsmi lisenziyalar.

## İstehsalçı avadanlıq sertifikatları

Mühəndis heyətimizin aparıcı beynəlxalq odluq, qazan, vintli kompressor və generator istehsalçılarının xüsusi təlim mərkəzlərində keçdiyi ixtisaslaşma akkreditasiyaları. Tam siyahı və skan nüsxələr: **heat.az/#sertifikatlar**



Lisenziya EL-388/2026

İQTİSADİYYAT NAZİRLİYİ



Lisenziya EL-380/2026

İQTİSADİYYAT NAZİRLİYİ



Combustion Management System

LAMTEC



ETAMATIC Burner Control

LAMTEC



RIELLO Odluq Təlimi

E-GAZ / RİELLO



Kompressor Servisi

DUCOMP COMPRESSOR



Kompressor Servisi

DUCOMP COMPRESSOR

SERVİS ETDİYİMİZ AVADANLIQ BRENDLƏRİ

SIEMENS · LAMTEC · AUTOFLAME · Honeywell · ALARKO HOLDING A.Ş. · Buderus · Ecoflam · CIB UNIGAS · elco · weishaupt · baltur · RIELLO Energy For Life

Vitotherm · THERMETA · ZANTINGH · CRONE · FTE · ecostar · FBR · VIESSMANN · Danfoss · aksa · GENPOWER · TEKSAN

CUKUROVA Dizel Jeneratör · wilo · LOWARA xylem · TEKNOPUMP · Standart · GRUNDFOS · ALMiG Compressor Systems · EKOMAK · FiLO · DUCOMP COMPRESSOR · HAVAMAK

BİZƏ ETİBAR EDƏN ŞİRKƏTLƏR

# Sənaye, tikinti, otel və aqrar sektoru

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Azfen | Caspian Plaza | Dəmirçi Tower | AGA İş Mərkəzi | Bakı Sağlamlıq Mərkəzi | Respublika Diaqnostika Mərkəzi | Dünyagöz Klinika | İlk İnşaat |
| Qəbələ Konserv Zavodu | Milla | Azərtoxum | Garabagh Resort & SPA | Gashalti Health Hotel | Zirə Gülçülük | Glassman | Şəmkir Agro |
| Era Agro | Azərkarton | Greentech | Agrofavorit | Ecoprod | Gözəl Seeds | GFC | Agrofresh |
| Pozitron Agro | N1 Çörək Zavodu | Bakıxanov Çörək Zavodu | Red Globe | GBS | Təmiz Şəhər | Paprec | |


QAZANXANA · MONTAJ VƏ SAZLAMA


ODLUQ · LAMTEC AVTOMATİKA


ODLUQ · ƏSASLI TƏMİR


PANO · ELEKTRİK MONTAJI

TƏCİLİ ÇAĞIRIŞ VƏ MÜHƏNDİS BAXIŞI

# Sistemlərinizdə Problem Var, Yoxsa Yanacaq Qənaəti Əldə Etmək İstəyirsiniz?

Mühəndisimizin müəssisənizə baxış keçirməsi, mövcud avadanlıqların auditi və sizə xüsusi texniki/kommersiya təklifinin hazırlanması üçün bizimlə əlaqə saxlayın.

| | |
|---|---|
| TƏCİLİ ÇAĞIRIŞ | **+994 55 411 33 66** |
| MOBİL / WHATSAPP | **+994 55 348 76 75** |
| E-POÇT | info@heat.az |
| VEB | heat.az |
| ÜNVAN | Ə. Nəvai küç. 10C, Babək prospekti, Bakı |
| İŞ SAATLARI | B.e–Ş 09:00–18:00 · Təcili çağırış 24/7 |

HEATTECH

© 2026 HeatTech MMC. Bütün hüquqlar qorunur.



## NECƏ İŞLƏYİRİK

01 Zəng və ya WhatsApp sorğusu — avadanlığın tipi və problem barədə qısa məlumat.

02 Müəssisəyə mühəndis baxışı və mövcud avadanlıqların auditi.

03 Texniki-kommersiya təklifi: iş həcmi, ehtiyat hissələr, müddət.

04 İcra, sınaq və baca qazı analizi ilə yekun tənzimləmə.

05 Zəmanət və istəyə görə dövri texniki xidmət müqaviləsi.